KASPİ GLOBAL
Xaricdə Təhsil Xidmətləri

**Tarix:** 27 avqust 2024 **Versiya:** 1.4

# MACARISTAN TƏHSİL VİZASINA MÜRACİƏT QAYDALARI

## ƏSAS SƏNƏDLƏR

1. **Pasport**
   - Xarici pasportun bitmə tarixinə minimum 15 (vizanın son günü + 3 ay)  ay qalmalıdır;
   - 2 boş səhifəsi olmalıdır;
   - 1 ədəd sadə surəti (əsas, son 3 ilin şengen vizaları (əgər varsa), ölkələrə giriş-çıxış möhürləri olan səhifələr) çıxarılmalıdır.
2. **Şəxsiyyət vəsiqəsi**
   - 1 ədəd sadə surəti çıxarılmalıdır.
3. **Milli viza üçün ərizə forması**
   - Ərizə forması http://oif.gov.hu/images/9.pdf linki, apendiks isə http://oif.gov.hu/images/9.13.pdf linki üzərindən endirilməli və əllə doldurulmalıdır;
   - Forma 1 ədəd hazırlanmalıdır;
   - Ərizənin sonunda yer, tarix yazılmalı və imza çəkilməlidir.
4. **Ərizə üçün rəngli fotoşəkil**
   - 2 ədəd tələb olunur;
   - Ölçüləri 3.5×4.5 sm, ağ fonda və biometrik olmalıdır;
   - Ən köhnə halda 6 ay ərzində çəkilməlidir.
5. **Tibbi sığorta**
   - Sığorta məbləği 30.000 avro hesablanmalıdır;
   - Müraciətçinin Macarıstandakı ilk 30 gününü əhatə etməlidir;
   - 1 ədəd sadə surəti çıxarılmalıdır.
   - Bütün Şengen ölkələri üçün (bax: Şengen zona) keçərli olmalıdır;
6. **Maliyyə dəstəyinin sübutu**
   - Maliyyə sənədləri qeyd olunan variantların biri (və ya bir neçəsi) ilə sübut oluna bilər:
     - təqaüd qazanılması barədə məktubla;
     - sponsor tərəfindən verilmiş zəmanət məktubu ilə;
     - bank hesabı və həmin hesaba minimal məbləği (2024-cü il üçün minimum 11000 ABŞ dolları) mədaxil etməklə və iş yerindən arayış (maaş və vəzifə qeyd olunmaqla) verilməklə;
       - Tələbə işləmirsə, gəlirləri olan şəxs (ata, ana və s.) sponsorluq üçün notarial qaydada arayış verməli və iş yerindən arayış (maaş və vəzifə qeyd olunmaqla) hazırlamalıdır;
     - müntəzəm gəlirləri sübut edən digər (məsələn, daşınmaz əmlak kirayəsi, səhm gəlirləri və s.) sənədlərlə.
   - Bank və ya kart hesabından son 6 ayın çıxarışı;
   - Sənəd (və ya sənədlər) ingilis dilində deyilsə, ingilis dilinə notarial tərcümə olunmalıdır.
7. **Qəbul məktubu**
   - Universitet tərəfindən göndərilmiş yekun qəbul sənədi;
   - Təhsilin başladığı tarixi, ödənişin olunduğu haqda məlumatı (əgər təhsil ödənişlidirsə) əks etdirməlidir.
8. **Uçuş biletinin bronu**
   - Təktərəfli təyyarə bilet bronu.
9. **Yaşayış yeri barədə sənəd**
   - Yataqxana, kirayə ev və ya otel bron sənədi.
10. **18 yaşına çatmamış tələbələr üçün**
    - Tələbənin doğum haqqında şəhadətnaməsi
      - İngilis dilinə notarial tərcümə olunmalıdır;

    - 1 ədəd sadə surəti çıxarılmalıdır.
- Maddi öhdəlik üçün ərizə
    - Maddi öhdəlik ərizəsi adına bank hesabı açılmış hər hansı bir valideyn tərəfindən notarial qaydada verilməlidir;
    - İngilis dilinə notarial tərcümə olunmalıdır;
    - Əsli və 1 ədəd surəti təqdim olunmalıdır.
- Macarıstan Respublikası ərazisinə sərbəst səyahətlə bağlı ərizə
    - Hər iki valideyn tərəfindən notarial qaydada verilməlidir;
    - İngilis dilinə notarial tərcümə olunmalıdır;
    - Əsli və 1 ədəd surəti təqdim olunmalıdır.
- Valideynlərin şəxsiyyətlərini təsdiq edən sənəd
    - Valideynlərin şəxsiyyət vəsiqələrinin və ya pasportlarının əsli və 1 ədəd surəti təqdim olunmalıdır.

## DƏSTƏKLƏYİCİ SƏNƏDLƏR

**11. Dil biliyinin sübutu**
- Beynəlxalq dil sertifikatının əsli və surəti (əgər varsa);
- Əvvəlki təhsilin ingiliscə alınması ilə bağlı arayışın əsli və surəti (əgər varsa).

**12. Əvvəlki təhsilin sənədləri**
- Bakalavr üçün attestat, magistratura oxuyacaq tələbələr üçün isə bakalavr diplomu (və ya arayış) və diplom əlavəsi (və ya transkript) hazırlanmalıdır;
- Yalnız attestat, original diplom və original əlavəsi 5 saylı ASAN xidmət mərkəzində Xarici işlər nazirliyi (Konsulluq xidmətləri) tərəfindən apostil şəhadətnaməsi ilə təmin olunmalıdır;
- İngilis dilinə notarial tərcümə olunmalıdır;
- 1 ədəd sadə surəti çıxarılmalıdır.

**13. Təhsil haqqının ödəniş sənədi**
- Təhsil haqqının ödənişini sübut edən bank sənədinin əsli;
- 1 ədəd surəti çıxarılmalıdır.

## GÖRÜŞÜN GÜNÜN GÖTÜRÜLMƏSİ

**Addım 1.** consular.bku@mfa.gov.hu poçt adresinə təhsil məlumatları və pasport nömrəsi yazılaraq və viza üçün tələb olunan sənədlər də göndərilən e-poçta əlavə olunaraq görüş günü istənilir. Sənədlər ayrı-ayrı fayllarda (məsələn, bir PDF faylında pasport, digər faylda doldurulmuş viza müraciət ərizəsi və s.) və PDF S formatda olmalı və ümumi ölçüsü 8 MB-ı keçməməlidir.

**Addım 2.** Səfirlik görüş gününü və saatını təsdiq edən e-poçt göndərir. Eynilə, çatışmayan və ya səhv hazırlanmış sənədi qeyd olunan görüş gününə qədər hazırlanması tələb edir.

**Qeyd:** Viza müraciəti zamanı Macarıstanın Azərbaycandakı səfirliyində şəxsi iştirak tələb olunur.

## RÜSUMLAR

- Viza müraciəti rüsumu 207 AZN-dir və bankda ödənilir.

## QEYD

- Səfirlik əlavə sənədlər tələb etmək hüququnu özündə saxlayır;
- Vizanın cavablandırılması üçün müddət 2 həftədən 1 aya qədər çəkə bilər;
- Səfirlik viza qərarı verilənədək pasportu özündə saxlayır, yəni vizaya müraciət olunduqda, ərizəçi pasportunu geri götürə bilməz;

- Viza müraciəti üçün sənədlərin tam şəkildə təqdimatı vizanın müsbət qərarlandırılacağına zəmanət vermir;
- Səfirliyin rüsumu istənilən halda geri qaytarılmır.

## ÜNVAN VƏ ƏLAVƏ MƏLUMATLAR

Ünvan: İçəri Şəhər, Mirzə Mənsur küç. 72, Bakı AZ1004, Azərbaycan

Əlaqə nömrəsi: 0124974579 (B.e.-C.a. 14.00-16.30, C. 10.00-14.30)

Veb səhifə: https://baku.mfa.gov.hu/aze/page/mqsd-thsil